# Sibir küləyinin vahiməsi

**1937-ci ilin avqust ayının 5-də qəribə bir qərar çıxır. Həmin qərara Mikoyan və Stalin qol çəkirlər. Qərarda yazılırdı ki, menşeviklər, müsavatçılar, hümmətçilər güllələnməlidirlər. Onların "istintaq işi" cəmi 15-20 dəqiqə çəkirdi. Azərbaycandan bəzi adamların adını elə bu qərarı imzalayanlar özləri deyirdi.**

Bu sırada Hüseyn Cavidin, Mikayıl Müşfiqin, Əhməd Cavadın, Tağı Şahbazinin, Ülvi Rəcəbin və neçə-neçə belə müqtədir adamların adları çəkilirdi. Həmin sırada Bəhram Məlikyeqanovun da adı var idi. Bəs onun günahı nə idi? Əslində bu ölüm hökmünə heç bir səbəb yox idi. Amma şərlə, böhtanla dolu ittihamlar gizli otaqlarda yazılırdı.

1937-ci ilin şaxtalı bir gecəsində Bəhram bəyi sorğusualsız məlum olmayan səmtə apararlar. İki uşağı, həyat yoldaşı və anası çıxılmaz vəziyyətdə qalır. Onda Bəhram bəyin həyat yoldaşı Sara xanım yeganə çıxış yolunu Mir Cəfər Bağırovdan kömək istəməkdə görür. Onu da nəzərə alır ki, Bəhram bəy ölkə rəhbəri ilə Sənaye İnstitutunda qrup yoldaşı olmuşdu. Bütün gücünü toplayıb respublika rəhbərinin qəbuluna gedir. Özü demişkən, böyük ümidlə... Ona görə ki, Bəhram Məlikyeqanovun tam günahsız olduğuna əmin idi. Bir də ona görə arxayın idi ki, ölkə rəhbəri onun həyat yoldaşını yaxşı tanıyırdı. Və beləliklə, Sara xanım son ümid yeri kimi Mir Cəfər Bağırova üz tutur. Sadəlövh qadın Mir Cəfər Bağırovun öz köməkçisinin sözlərini ağzında qoyduğunu eşidəndə xeyli təəccüblənir. Mir Cəfər Bağırov əsəbi halda "Məlikyeqanovlar hələ də sağdırlar?" deyə qışqırır. Bundan sonra vəziyyət bir qədər də gərginləşir. Məlikyeqanovlar ailəsinə təqiblər xeyli güclənir. Hətta onların övladlarının komsomola qəbuluna qadağalar qoyulur. Bu ailədən olanların sovet ordusu sıralarına çağırılması da məhdudlaşdırılır. Vəziyyət bir qədər də dəyişir, daha doğrusu, sərtləşməyə doğru gedir. Bu ailə üzərində cəza maşınının nəzarəti gücləndirilir. Özü də təkcə Sibir sürgünü, digər ağır cəzalarla iş bitmirdi. Əliayağı qıc olanları, soyuqdan donanları ən ağır cəza üsulları ilə məhv edirdilər.

Bəhram Rza oğlu Məlikyeqanov sənayeçi idi. Təhsilini təzəcə başa vurmuşdu. Amma imkan vermədilər ki, iş qabiliyyətini göstərsin. Onu şərləmək, sürgünə göndərmək üçün ciddi səbəblər tapa bilmirdilər. Amma 1937-ci ilin sərt repressiya qanunları bəzən insan taleyini 15-20 dəqiqəyə həll edirdi. O qədər yerli-yersiz sorğusuallar olurdu ki... Guya ədalət məhkəmələri qurulurdu. Əslində bunların hamısı kağız üzərində idi. Əgər əmr yuxarıdan verilmişdisə, onun müzakirəsi aparılmazdı.

Bəhram bəyin həyat yoldaşı Sara xanım hiss etmişdi ki, bu qondarma təhqiqat hələ uzun davam edəcək. Ona görə də iş axtarmaq məcburiyyətində qaldı. Nə yaxşı ki, ona kömək etmək niyyətində olanlar tapıldı. Özü də elə bir vaxtda ki, bu ailə ciddi nəzarət altında idi. Onu Azərbaycan Yazıçılar İttifaqında makinaçı kimi işə götürdülər. Ailəyə kömək etmək məqsədilə 14 yaşlı oğlunu da həmin təşkilatda kuryer vəzifəsinə təyin etdilər. Amma təhlükə hələ də sovuşmurdu. Ona görə ki, Məlikyeqanovların nəsli güclü izlənilirdi...

Sara xanım sonralar xatirələrində yazır ki, Bəhram Məlikyeqanovun Sibirə sürgün dövrü başa çatsa da, ondan xəbər-ətər olmadı: "Düz 15 il yolunu gözlədim. O qədər təşkilata, idarəyə məktublar yazdım ki... Aldığım cavabların hamısı bir-birinə oxşayırdı. Daha doğrusu, heç yerdən dəqiq məlumat vermirdilər. Amma ümidlərimi qırmırdım, axtarışlarımı davam etdirirdim. İki uşağı böyütmək, ərsəyə gətirmək o qədər də asan deyildi. Tam köməksiz qalmışdım. Ən çox qorxduğum gecə çağırışları idi. Elə ki qapını döyürdülər, uşaqlar bir-birinə sığınırdı. Bircə onu bilirdik ki, bizi də Sibirə göndərəcəklər. Gecələr Sibir küləyinin soyuqluğunu, giziltisini, ağrısını canımda hissi edirdim. Elə bilirdim ki, bizi də bu tale gözləyir. Amma hələ ki çətin də olsa, övladlarımı böyüdürdüm. Daha doğrusu, sürgün dövrünün bitməsini gözləyirdim. Gözləyirdim ki, 15 il ötüb keçsin.

Sən demə, heç də hər şey mənim nəzərdə tutduğum kimi deyilmiş... 15 il özözümə təsəlli vermişəm. Sürgün qərarından cəmi üç gün sonra fikirlərini dəyişirlər. Cəmi 15-20 dəqiqəyə Bəhram Məlikyeqanova güllələnmə hökmü oxunur. Onun etiraz etməyinə, münasibət bildirməyinə heç bir ehtiyac qalmır. Repressiya maşını belə işləyirdi..."

Bəhram Məlikyeqanov nə sərt Sibir küləyi görmüşdü, nə də Bakıdan uzaqlaşmışdı. Elə doğma divarlar arasında məhv edilmişdi. Respublika rəhbərinin qərarı belə idi. Onu müzakirə etməyə heç kəsin hüququ yox idi.

Sara xanım bütün bunları biləndən sonra ümidləri hər yerdən üzülür. Daha axtarışları davam etdirmir. Amma öz-özünə təsəlli kimi xeyli xatirə yazır. Yazır ki, insan hər cür çətinliyə dözər, amma onun mahiyyətini dərk etməklə. Biz günahımızdan xəbərsiz idik. İnstitutu təzəcə bitirən gənc mütəxəssisin nə günahı ola bilərdi ki?.. Onu cəmiyyət də o qədər tanımırdı. Amma tanıyanlar vardı. O adamlar tanıyırdı ki, onlar xislətindən xəstə idi. Belə adamlardan kömək ummaq, yardım gözləmək yersiz görünürdü. Sara xanım yazır ki, ümid yerim övladlarıma qalmışdı. Onları böyütmək, Bəhramın arzularını həyata keçirmək mənim üzərimə düşürdü. Bunun üçün nə gərək idisə, əsirgəmirdim. Ona görə ki, bu ailə çətin günlərin sınağından çıxmışdı, Sibir küləyinin hədəsini görmüşdü. Görmüşdü ki, insanları günahsız, heç bir səbəb olmadan incitmək olar. Və incidirdilər də... Yaxşı xatırlayıram, Bəhramın anası bu dərdi axıra kimi çəkə bilmədi. Yazıq qadın övladlarının adını çəkə-çəkə can verdi. Bəhramdan bir qədər əvvəl böyük oğlunu da sürgünə göndərmişdilər. Amma onu həqiqətən Sibirə, soyuq küləklər diyarına...

Sara xanım yazır ki, repressiya qurbanı olan ailələrin çoxu ilə əlaqə saxladım. Elə bil eyni taleyi yaşayırdılar. Onların hər şeyi kəm-kəsirli idi. Təkcə dolanışıqları yox, elə çəkdikləri əzablar da bir-birinə bənzəyirdi. O qədər yerlərə yazırdılar ki... Hamısı kömək gözləyirdi. Amma bu cinayəti törədənlərdən kömək əvəzinə sərt cavablar alırdılar. Dözümün də bir həddi olur. Amma taleyi bir-birinə oxşayan bu ailələr hələ ki son həddə gəlməmişdilər. Kimlərdənsə ədalət gözləyirdilər, xeyirxahlıq umurdular. Amma repressiyanın qanunlarında belə şeylərdən əsər-əlamət yox idi. Günahsız adamları axıra qədər təqib edirdilər. O həddə qədər ki, onlar yaşamaqdan bezirdilər...

***Bəşir ŞƏRİFLİ, "Azərbaycan"***